***Folklorşünaslıq***

# Cahangir Dalğın yaradıcılığında əcdad məsələsi

**Zümrüd Mənsimova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA-nın Rəyasət Heyəti, İctimai Elmlər Bölməsi. Azərbaycan.
E-mail: zumrudibrahimqizi@gmail.com

**Annotasiya.** Məqalədə Zaqatala aşıq mühitinin yetirməsi olan Aşıq Cahangir Dalğının yaradıcılığında əcdad kultu nümayəndələrinə münasibət məsələsi araşdırılmış və el sənətkarının kimliyi, şəxsiyyəti haqqında bir sıra məqamlara aydınlıq gətirilmişdir. Onun poeziyasında əcdad kultunun transformativ paradiqmaları olan Hz.Adəmə, Hz.Əliyə, Xıdır İlyasa, Qırxlara olan sevgisi tədqiq edilmişdir.
**Açar sözlər:** əcdad, Hz.Adəm, Hz.Əli, Xuda, Aşıq, aşıq sənəti, Cahangir Dalğın

**Məqalə tarixçəsi:** göndərilib – 11.09.2022; qəbul edilib – 18.09.2022

# The issue of ancestry in the creative work of Jahangir Dalgin

**Zumrud Mansimova**
Doctor of Philosophy in Philology
Scientific secretary of the Presidium of ANAS, Department of Social Sciences. Azerbaijan.
E-mail: zumrudibrahimqizi@gmail.com

**Abstract.** In the article, with the help of Ashug Jahangir Dalgin, who is a supporter of Zagatala’s ashug environment, the issue of attitude towards the representatives of the ancestor cult is investigated. Also, a number of issues have been discussed about the identity and personality of the master. His love and respect for Adam, Hazrat Ali, Khidir Ilyas, and the Kirkh, who are the transformative paradigms of the ancestor cult, were studied in his poetry.
**Keywords:** ancestor, Hz.Adam, Hz.Ali, Khuda, Ashug, art of ashug, Jahangir Dalgin

**Article history:** received − 11.09.2022; accepted − 18.09.2022

## Giriş / *Introduction*

Azərbaycan aşıq sənəti milli-mənəvi dəyərləri özündə ehtiva edən xalq sənətidir, xalqımızın milli sərvətidir. Çünki aşıq poeziyasında ulu əcdadlarımızın nəfəsi, həyat və düşüncə tərzi boy verir. Aşıq sənətinin əsas göstəricisi olan saz, sələflərimizin bizə yadigar qoyduqları müqəddəs və milli dəyər kimi nəsillərdən nəsillərə, yaddaşlardan yaddaşlara köçürülən, öncə şifahi nitqdən ötürülən qədimliyin, ululuğun, böyüklüyün simvoludur.

Xalqımız həmişə öz milli-mənəvi dəyərləri ilə özgə xalqlar içərisində öndə durmuş, özününkü olanı özgələşməyə imkan verməmişdir. Özgələşməyən dəyərlərdən biri də məhz aşıq sənətidir. Çünki el sənətkarları olan aşıqlar ulu əcdadların bizə miras qoyduqları sazı və sözü

yaşadırlar. Saz və söz ən ali məqam kimi, humanizmi, bərabərliyi, eləcə də bəşəri dəyərləri, vətənpərvərliyi, azərbaycançılığı qədimlərdən günümüzə gəlib çatan adət-ənənələri və digər milli dəyərləri özündə ehtiva edir. Aşıq sənətinin kökləri şifahi ənənənin dəyərli nümunələrinə əsaslanaraq bu zənginlikdən şirə alır. Ona görə də əbədiyaşardır və əsrlərin sınağından uğurla keçərək günümüzə qədər gəlib çatmışdır. Mürsəl Həkimov haqlı olaraq aşıq ədəbiyyatının vətənpərvər, beynəlmiləl, xəlqi olduğunu qeyd etmişdir [3, s.242].

## Əsas hissə / *Main Part*

Məqalədə Cahangir Dalğının mənsub olduğu mühitin sənət spesifikası və eləcə də yaradıcılığında ulu əcdadlara onların transformativ paradiqmalarına münasibət hansı şəkildə öz əksini tapmışdır və s. kimi suallara cavab tapmağa çalışmışıq.

Əslən Zaqatalanın Bəhmətli kəndindən olan (əvvəlki Verxiyan kəndi) ustad Aşıq Cahangir Dalğın aşıq şeirinin bütün janrlarında yazıb-yaratmışdır. "Cahangir Dalğının məclislərdə bədahətən şeir demək qabiliyyəti, mükəmməl ifa tərzi, onu həm el şairi, həm də ustad sənətkar kimi dəyərləndirməyimizə əsas verir" [7, s.82].

Ustad sənətkar 1929-cu ildə Qax rayonunun İlisu kəndində (əvvəllər həmin ərazi Beşbulaq xanlığı adlanmışdır) anadan olmuşdur. Aşıq Cahangir Dalğın hələ uşaq yaşlarından dünyaya gəldiyi İlisu mahalından və ailəsindən ayrı düşmüşdür. Onun atası Əmrullah kişi və bəy nəslindən olan əmiləri repressiyaya məruz qalırlar. Əsli İlisudan olsa da, 8 yaşından Zaqatalanın Varxiyan kəndindən olan Təmir kişinin himayəsində böyüyən Cahangirin əsl adı Mütəibov Qeyfəddin Əmrullah oğlu olub. Təmir kişinin himayəsinə keçdikdən sonra soyadı dəyişdirilərək, Əhmədov Cahangir Əmrullah oğlu kimi tanınıb. Ustadın özündən kiçik, azyaşlı bacı və qardaşı isə Bakıdakı uşaq evinə verilib. Cahangir Dalğın 1981-ci ildə 52 yaşında vəfat etmişdir. Onun beş qızı, iki oğlu var ki, onlardan Əhmədova Şövkət, nəvələri Mahmudova Sonbahar, Qazıyev Sahib, Cahangir Dalğın ocağının layiqli davamçıları hesab oluna bilər. Cahangir Dalğının qızı Həsənova Gülbahar isə yazar kimi el arasında tanınmaqdadır.

"Əsl el sənətkarını yaşadığı, böyüyüb boya-başa çatdığı mühit yetişdirir", – deyirlər. Əgər bir mühitdə zəngin milli mədəniyyətin daşıyıcısı varsa, demək ki, orada ənənə də var. Orada əcdadlarımızın qoyduqları yola hörmət var, elin ağsaqqalı sayılan ustad sənətkarlara sonsuz dəyər var. Aşıqlar sənətkarlıq estafetində həmişə əcdad sözünə, əcdadların qoyduqları yola hörmətlə yanaşmış, qədim ənənələri layiqincə qorumuş, nəsildən-nəsilə ötürməyi bacarmışlar. Belə saz-söz xiridarlarından olan Aşıq Cahangir Dalğın şeirlərinin birində yazır:

*Bizim ulu babaların*
*Xatirəsi qəlbimdədir.*
*Onların xoş nəsihəti,*
*Hər birisi meylimdədi.* [10]

Aşıq Cahangir Dalğının böyüyüb boya-başa çatdığı Varxiyan diyarında tarix boyu söz xiridarları yetişmiş, saza-sözə böyük dəyər verilmişdir. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, milli mədəniyyətimizin inkişafında, xalqın adət-ənənələrinin zənginləşdirilməsində aşıqların böyük xidmətləri olmuşdur. "Əsl el sənətkarı öz zəmanəsindən yüksəkdə durmasa, işığı ətrafa yayılmaz", – deyirlər. Folklorşünas alim Məhəmməd Hüseyn Təhmasib "Özü də Şəmşir, sözü də Şəmşir" məqaləsində qeyd edir ki,"Aşıq, doğrudan da, hər zaman öz səsi, sazı, sözü ilə ürəklərə təsir etməyi bacaran sənətkar olmuşdur. Bu uzaq keçmişdə də belə imiş, dünən də belə idi, bu gün də belədir" [8, s.110]:

*Bir mənalı sual etdim,*
*Cavabında dedi əhdim.*
*Xalqa sonsuz məhəbbətim*
*Mənim şair könlümdədir.* [1, s.42]

Varxiyan kəndi sıradan bir kənd olmamışdır. Bu diyarda tarix boyu öz soykökünə, milli-mənəvi dəyərlərinə ürəkdən bağlı olan, onlarla zəngin el sənətkarı yetişmişdir. Bu kənd el sənətkarlarımızın sələfi olan ustad Aşıq Məhəm-

mədin kəndidir. Bu diyar ustad Cahangir Dalğının, Aşıq Mədətin, Aşıq Səadədinin məskənidir. Aşıq sənətinə böyük dəyər vermiş ölməz bəstəkarımız Üzeyir Hacıbəyov aşıqların birinci qurultayında bu əvəzsiz sənətin daşıyıcıları haqqında demişdir: "Bugünkü aşıqlar aşıq adını bir peşə və ya sənət sahəsi kimi daşıyır, keçmiş aşıqların adını müqəddəs tutur, onların haqqında yaranmış əsərləri yaşadır və kəndbəkənd gəzərək, bu sənəti inkişaf etdirirlər. Aşıq sənəti daha xəlqi, daha kütləvidir. O, xalqın əhval-ruhiyyəsi ilə yaşayır. Aşıq sənəti xalqın özünün yaradıcılığıdır. Xalq yaradıcılığı isə heç bir texniki, metodiki kömək qəbul etmir. O, öz-özünə xalqın mədəni, iqtisadi-siyasi səviyyəsi ilə bərabər inkişaf edir" [1].

Bu da bir gerçəklikdir ki, əsl el sənətkarları heç vaxt öz doğru bildikləri yoldan çıxmaz və çətinlik qarşısında aciz qalmazlar. Zaqatala aşıqlarının sələfi hesab olunan Varxiyanlı haqq aşığı Məhəmməd, erməni aşıqları onu ölümə sürüklüyən zaman onların hiyləsini anlaya-anlaya ölümün üstünə dik gedərək, şəyirdlərinə "zəhərlənmiş aşdan mən dadacam, siz dadmayın", – deyərək qadağa qoymuşdur. Aşıqlar özləri haqqın carçısı olmaqla bərabər, həm də sələflərinin yaradıcılıqlarını yaşatmaq qüdrətiylə məhz əcdad kultunun transformativ paradiqmalarıdır. Bütün aşıq mühitlərində tarixən "babadədə-ata", eləcə də ozan-qopuz, aşıq-saz paralelliyi mövcud olmuşdur. Məsələyə sırf Zaqatala aşıq mühiti tərəfindən yanaşdıqda tənbur və saz, tənburçu və aşıq keçidlərini də əlavə etmək olar:

***Ozan-qopuz, tənbur-tənburçu-aşiq-aşıq-saz-el şairi***

Digər mühitlərdən fərqli olaraq, tarix boyu bu mühitdə yaşayıb-yaradan bir sıra aşıqlar tənbur ifasından sonra saz ifasına keçmişlər. Çünki bir sənətin, sazın-sözün vurğunu olmadan, sənətə və haqqa aşiq olmadan aşıq, el sənətkarı, haqq aşığı da ola bilməzsən.

Özündən əvvəl yaşamış sələflərinin yaradıcılığını sinədəftər edən, uşaq yaşlarından ailəsini itirən ustad sənətkar Aşıq Cahangir Dalğın özünü qanandan həmişə ailəsini axtarmış, müxtəlif dövlət qurumlarına müraciət etmiş, tapmadıqca yaşadığı zəmanədən, quruluşdan narazı qalmışdır:

*Nə barış var, nə də dava,*
*Nə yurd tapdım, nə də yuva.*
*Atam Adəm, anam Həvva,*
*Vəlim yollarda, yollarda.* [1, s.59]

Bəzən qoşmalarında əcdadlarımızın Adəm nəslindən olmasını vurğulayır, hər zaman Allahın eşqiylə irəliləməyi özünə tövsiyə edir. R.T.Erdoğan demişkən, eşqlə yürüyən yorulmaz. Çünki itirdiyi böyük bir nəsli-kökü tapmaq üçün Cahangir Dalğının buna çox ehtiyacı vardır:

*Biz Adəm nəsliyik, var iradəmiz,*
*Dünyaya nur saçır əməllərimiz,*
*O qadir Allahdır bizim fəxrimiz,*
*Sən onun eşqiylə gəz, cavan bəxtim.* [1, s.97]

Bəzən şeirlərinin misralarında özünü, əslini, nəslini, şəcərəsini tanıdan ustad sənətkar, yaşadığı yeri-yurdu danmır. Əksinə, insanları bu müqəddəs yerləri görüb tanımağa dəvət edir:

*Ariflər arifin olsun mehmanı,*
*Yurdum Varxiyandır, sən də gəl tanı.*
*Qəlbinə yaz Dalğın verən ünvanı,*
*Əlimə almışam qələm, ay usta.* [1, s.64]

Aşıq Cahangir Dalğın ulu babalardan bizə yadigar qalan saza böyük dəyər vermişdir. Sazı həyatının xoş anlarında olduğu kimi, qəmli, kədərli zamanında da, ağrılarında, təsəllisində də yaşatmağı, dərdlərini bölüşməyi və dilləndirməyi bacarmışdır:

*Cahangirəm, xoş diləklər dilərəm,*
*Qayğıma kim yanır, özüm bilərəm,*
*Bir gün gələr, əcəl çatıb ölərəm,*
*Əlimdəki bir sədəfli saz ağlar.* [1, s.67]

Folklorşünas alim E.Məmmədli aşıq sənətinə aid araşdırmalarında qeyd edir ki, bu sənət formalaşdığı dövrdən, insan aləmini, onun istək və arzularını, ağrısını, acısını, sevincini, kədərini, sevgi və iztirablarını tərənnüm edir [6, s.10].

Cahangir Dalğın ata-babalarımızın xələflərinə yadigar qoyduqları elə, obaya, müqəddəs məkanı, onun qoynunda qürurla yaşayan insanlara güvənmiş, özünə həmişə arxa-dayaq bilmişdir:

*Arxalan ilhamı verən elinə,*
*Dalğın, qadağa qoy şirin dilinə.*
*Haqqın kitabını alıb əlinə*
*Götürmə üstündən göz, cavan bəxtim.* [1, s.97]

Özünü haqq aşığı kimi qələmə verən ustad Cahangir Dalğın öz ustadlıq dərsini hələ uşaqkən haqdan aldığına işarə edir. Bildiyimiz kimi, aşıqlar özləri də 2 qismə bölünür:

- ustada qulluq edən el sənətkarları;
- ustada qulluq etməyən, dərsini haqdan alan haqq aşıqları.

Cahangir Dalğının nəzərində yalnız sələfi hesab etdiyi əcdad törəmələrinin əliylə içirilən badə sahibi haqq aşığı ola bilər. Yalnız 4 müqəddəs mərhələni – təriqətin, şəriətin, mərifətin, həqiqətin mərhələrindən keçərək haqq aşığı ola bilərsən. Prof. Həsən Kamil Yılmaza görə, "Allaha gedən yol insanın içində doğur, könlündə kamilləşir və qəlbində haqq ilə qovuşur" [9, s.12].

*Ulu göylər sinəsini gəribdir,*
*Ab-atəşi xaki badə veribdir.*
*Ağam mən tifikən veribdir.*
*Yüz on dörd kitabın ayəsi məndə.* [1, s.8]

Ustad sənətkarın şeirlərində ürfan əhlinə, eləcə də əcdad kultunun nümayəndələrinə sonsuz hörmət və ehtiramı vardır. Dini və ürfanı dərindən bilən ustad sənətkar müqəddəs şəxslərə aid ali və sakral məqamları da yaxşı anlamış və onların özlərinə məxsus xüsusiyyətlərinə görə işarələməyi bacarmışdır.

O, yeri gəldikcə, qıfıllamalarında suallarıyla konkret hədəf seçir, dünyanın və təbiətin məchul sirləri ilə qarşısındakını imtahan edir, düşündürür:

*On iki bina var, on iki bucaq,*
*On iki çeşmə var, on iki ocaq,*
*On iki bəzirgan, on iki qaçaq,*
*Yoldaş olub görüşməyə bildinmi?* [1, s.87]

Ustad sənətkar İslam dinini Peyğəmbər və övliyalarını öz fərdi və sakral keyfiyyətlərinə görə dəyərləndirir:

*Cəbrayıl kəlamlı, Əli ürəkli,*
*Osman tək peydadı, Musa hikmətli.*
*Məhəmməd gəlibdir ən səxavətli,*
*Yetişə onda ki, ənənə gərək.* [1, s.169]

Ustad sənətkar poeziyasında digər müqəddəslərlə yanaşı, Osmanın da adını tez-tez çəkir. Onun nəzərində Qurani-Kərimi çap edən Osman da Əli, Xızır Nəbi qədər pak və müqəddəsdir.

*Hansı gündə Adəm gəldi, sonra Həvvadan danış,*
*Kim düşübdür bu torpağa ərşi-asimandan danış.*
*Ol həbibim neçə şeyi bağışladı Adəmə?*
*Quranı çap eliyən qadir Osmandan danış.* [10]

Onun bəy nəslindən olan şəcərəsini və özündən başqa 2 bacı və qardaşını tapa bilməməsi böyük narahatçılıq doğurur. Giley onun poeziyasının əsasını təşkil edir. Ustad sənətkarların yarıdıcılığına diqqət etsək, Qırxlar piri, Əli və s. obrazlara diqqətimizi çəkir. Əcdad kultu paradiqması kontekstində isə biz sənətkarın yaradıcılığında Xuda obrazına təsadüf edirik. Bu obraz islamdan əvvəlki dünyagörüşlə bağlı bir obrazdır. Məlumdur ki, bir çox tədqiqatçıların araşdırmalarında, eləcə də folklor mətnlərində islamdan öncəki dünyagörüşdə tanrıçılığın (bəzən Göy Tanrını ilkin əcdad adlandıranlar da olmuşdur) izlərinə təsadüf edilmişdir. Dini dünyagörüşlərə yaxşı bələd olan ustad sənətkar bu obrazları da poeziyasına böyük ustalıqla gətirmişdir. Xuda obrazı mifoloji dünyagörüşün süzgəcindən keçib gəlməyinə baxmayaraq, şəriətdə Allahı Xuda ismiylə əvəzləmək birmənalı şəkildə qəbuledilməzdir:

*Yaranmışa Xaliq olan, həm Loğman, Xuda,*
*Neçə gündə yeri, göyü elədin, Xuda.*
*Ayı, günü, ulduzları səmaya bəxş elədin,*
*Torpağa Adəm, Həvvanı göndərdin mehman, Xuda.*

Və yaxud

*Haqlığına səcdə qılır yüz iyirmi dörd min nəbi,*
*Məhəmmədə bağlamısan yetmiş iki nayıbı.*
*Osman yazdı Qurani-Kərimi, Dalğına verdin təbin,*
*Müxtəsəri, bəşər üçün olubsan azman, Xuda.*
[1, s.288]

Ustad aşıqların yaradıcılığında əcdad kultu nümayəndəsi hesab olunan müqəddəs Nuhun, Xızır Nəbinin, Əlinin, Qırxlar Pirinin, Musanın, Osmanın paradiqmalarına təsadüf edirik. Mifoloji aspektdən yanaşdıqda əcdad kultunun müqəddəs paradiqmaları el sənətkarının yaradıcılığında aşağıdakı formada təzahür olunur:

***Nuh-Xıdır Nəbi-Xıdır İlyas, Əli-Musa-Qırxlar piri-Övliya-Seyid***

Hər müqəddəsin əcdad semantikasını dərindən bilən sənətkar hər müqəddəsin sakral məqamını da özünəməxsus şəkildə aşıq şeiri üslubuna gətirə bilmişdir. Aşıq Cahangir Dalğın əcdadlardan bir ənənə kimi yaşayıb günümüzə gəlib çatan, Musanın Tur dağında Allahla söhbətində ədəblə verdiyi haqq-salamı çox vacib hesab edir:

*Çox vacibdir deməк belə yerdə salam-əleyküm,*
*Salam alar varsa, kamal sərdə, salam-əleyküm.*
*Yaxşı adət çox vacibdir insan üçün hər zaman,*
*Musa Haqqa demişdi Turda salam-əleyküm.*
[1, s.294]

Burada haqq salamın hikməti ilə yanaşı, həm əcdad öyüdünə, nəsihətinə, arzu və diləyinə, qədir bilən mərd, cəsur insanların dərdə uğramamasını istəmir, namərdlərdən uzaq olmasını diləyir:

*Həyatımız şən keçinsin, çataq şana-şöhrətə,*
*Mərd insanlar düşməsinlər namərdlərə minnətə.*
*Meyil salın, əziz dostlar, daim gözəl işrətə,*
*Qədir bilən uğramasın dərdə salam-əleyküm.*
[1, s.294]

Ürfan, Tanrıya müraciət edilmiş, əcdad kultunun nümayəndələrinə hörmət və ehtiramla yazılmış onlarla şeir nümunəsinə təsadüf edirik. Professor Məhərrəm Qasımlı "Ozan – Aşıq sənəti" kitabında aşıq sənətinə böyük dəyər vermiş el sənətkarlarının yaradıcılıq gücünü, ilham mənbəyini heç təsadüf olmadığını bildirmişdir. O qeyd etmişdir ki, "Aşığın ilahi aləmlə, haqq dünyası ilə əlaqəsinə, müqəddəs ruhlarla bağlılığına inamın əlamətidir ki, o, fəaliyyət göstərdiyi bütün zamanlar boyu toxunulmaz sayılmışdır. El arasında "Aşıq haqq aşığıdır, ona zaval yoxdur", – kimi məsəl var ki, bu kimi bir sıra deyimlərin yayılması da, heç şübhəsiz ki, bu səbəbdəndir [5, s.108].

*Ya görünməz! Çox hökmün var, yaratdın, cahana şükür!*
*İnsanlığa qərar etdin, Adəmə, Həvvana şükür!*
*On dörd dünya qərar tutdu, nazil olan kitabda,*
*Məhəmmədə pay göndərdin, otuz cüz Qurana şükür.* [10]

Cahangir Dalğın hələ uşaq yaşlarında onu himayəyə götürən Təmir kişinin oğlu Süleymandan dini təhsil aldığı üçün dini biliklərə yaxşı yiyələnmişdir ki, bu da onun sonrakı yaradıcılığına təsirsiz qalmamışdır.

*Qabil öldürdü Habili, qan götürdü dünyanı,*
*Həzrət Əli Düldül atın minib, gəzdi hər yanı.*
*Qəm dəryasında görüb, seçdilər müsəlmanı,*
*Hər gələn vasi tutduğu, İsmayıl qurbana şükür.*
[1, s.296]

Professor H.İsmayılov qeyd edir ki, "öncə bu ondan irəli gəlir ki, bütün ürfan təriqətləri, təsəvvüf elminin bütün nəzəri əsasları Əli-əleyhissəlamın gizli elmlərindən qaynaqlanır" [4, s.298].

Aşıqlar hər halıyla əcdad törəmələridirlər. Onların saza, müdrük sözə sevgisi də məhz buradan qaynaqlanmışdır. Bu sevgi, bu dəyər onların şeirlərinə hopmuş, ruhlarına kök salmışdır:

*Ey xudam, həbibimsən, ilahim, səndən məded.*
*Gözə gəlməz pərvərdigar, ilahim, səndən mədəd.*
*Verdin insaf, verdin iman, göndərdin ərşdən kitab,*
*Tez aldılar Yusif-Nəsib, İbrahim, səndən mədəd.*
[10]

Ustad bu divanisində Allah dərgahına yetişmək, onun sevgisini, rəhmini qazanmaq, haqqın, həqiqətin yolunu tapmaq və tanıtmaq uğrunda keçirdiyi hiss-həyəcanını bölüşməyə çalışmışdır. Eyni zamanda ustad aşıq peyğəmbərlərin ilahidən güc aldıqlarını, ondan mədəd gördüklərini xatırlatmışdır. Digər bəndlərdə Dalğın müqəddəslərə verilən vəzifələrinə və ilahi gü-

cün dəyişilməzliyinə dolayısı ilə işarə etmişdir. Fani dünyada malın-mülkün, sevincin, kədərin – hər şeyin Allah tərəfindən göndərildiyini dərk edən aşıq Allahdan mədəd istəyir:

*Musa ilə Həzrət Əli Cəbrayıldan söz açdı,*
*Əzrayıl da tapdı yolu can almağa üz aldı,*
*Cahangirə nə göstərdin, nə göstərmək istəsən,*
*Əzablara dözən mənəm, Allahım, səndən mədəd.*
[10]

Bədahətdən şeir demək, özündən əvvəl yaşayıb-yaratmış el sənətkarlarının yaradıcılığını sinədəftər etmək, bəzən Tanrı dərgahından xəbər gətirmək, doğru yol göstərməklə müdrük qoca – ağsaqqal funksiyasını yerinə yetirmək, kəramət sahibi olmaq, əsl el sənətkarı dediyimiz haqq aşıqlarının əsas göstəricisidir. Folklorşünas Məhərrəm Qasımlı doğru olaraq vurğulayır ki, bu tip el sənətkarlarının ilham mənbəyi ilahi və müqəddəs aləm olduğu üçün onları heç kəs bağlaya bilmir. Bu qisim sənətkarların üzərində haqq nuru, Tanrı nəzəri dayandığına görə, dünyadan köçdükdən sonra onların dəfn olunduqları yer müqəddəs ocaq sayılır, qəbirləri pir kimi ziyarət edilir [5, s.104]. Cahangir Dalğın şəxsiyyətində cəmləşən bir çox xüsusiyyətlər vardır ki, onun haqq aşığı olmağına şübhə yeri qoymur. Məclislərdə bədahətən şeir deməyi, özündən əvvəlki el sənətkarlarının şeirlərini sinədəftər etməyi, yaşatmağı, haqq yolda olmağı, meydanda heç vaxt ilahi sözdən korluq çəkməməyi, əzilməməyi bunları simvolizə edən amillərdir.

Maraqlı haldır ki, dövrünün el sənətkarlarından fərqli olaraq, ustad sənətkarın şeirlərində yaşadığı dövr və zaman da tənqid hədəfinə tutulur. Onun poeziyasında bunun izlərinə çox təsadüf etmək olur. Onun atasının və əmilərinin haqsız represiyaya məruz qalması, eləcə də bacı-qardaşından ayrı düşməsi ustadın ağrısını daha da dilləndirmişdir. Onun poeziyasında yaşadığı sovet rejiminə qarşı kəskin nifrət hissi yeri gəldikcə əks olunmuşdur. Ailə üzvləri üçün bütün Azərbaycanı qarış-qarış gəzən, hər yerə müraciət edən ustad sənətkar ailə üzvlərini tapmaq üçün dəstək görmədiyindən, çox məyus olmuş, bu qəmginlik və kədər onun poeziyasında dərin iz salmışdır:

*Dalğın deyər, mən heyranam, sən tutduğun divana,*
*Həqiqətdən yaratmısan, hazıram imtahana.*
*Layiq deyil coşqun təbim, belə haqsız dövrana,*
*Gərəkdir səbr eləyəm, bundan da yamana, şükür.*
[1, s.296]

Giley onun yaradıcılığının əsas və başlıca motividir:

*Dalğına nə fərqi var, çünki yoxdur tutarım,*
*Mizrab düşdü barmağımdan, paslı qaldı tavarım.*
*Məkan mehman eləməsə, dərdi hara aparım?*
*Mümkündür ki, ancaq qala xalqa dastanım mənim.* [1, s.292]

Sələflərinin yolunu gözləməkdə, ustadların qoyduqları ənənələri doğru-düzgün davam etdirməkdə, onların miras qoyduqları yolu yaşatmaqda və qorumaqda, eldən gələn el sənətkarı həmişə vəfalı və sadiq olmuşdur:

*Məclisin əvvəlində deyərəm divani mən,*
*On doqquzda əcəb seçdim yaxşını, yamanı mən.*
*Göz yetirdim, nəzər saldım həddini aşanlara,*
*Aşiqlərin çoxlarına tutmuşam divanı mən.* [10].

Bildiyimiz kimi, ustad aşıqlar meydana daxil olanda ustadnamə ilə başlayıb divanilə davam edib, müxəmməslə sona vururlar. Cahangir Dalğın konkret bir ustada qulluq etməsə də, o özünü haqdan gələn haqq aşığı adlandırmışdır. Konkret ustada qulluq etmədən də bu ənənələri yaxşı bilirdi. Onun yaradıcılığında əcdad kultu nümayəndələrinin transformativ paradiqmaları hesab edilən müqəddəslərə, onların tutduqları yola, Tanrı qarşısındakı gizlin məqamlara xüsusi önəm verilmişdir. Ustad sənətkarın "Mən" adlı divanisində Tanrının dərgahına xoş niyyətlə ayaq basmağı vacib hesab edir. Xəbis olan kəslərdən ayırılıb yalnız Tanrının sevgisini qazanmaq fikri, düşüncəsi ilə dünyanın şərindən qaçıb ömrünü tamamən ona həsr etdiyi vurğulanır:

*Tutmuşam ərşin qulpundan, fikrim yana ayrılmaz,*
*Xəbislərin xanasından kənar məna ayrılmaz.*

*Cismin olsa od içində, heç bir yana ayrılmaz,*
*Mötəbər Qırxlar pirinin olmuşam mehmanı*
*mən.* [10]

Doğru sözdür ki, aşıq yaradıcılığı eldən şirə çəkir. Heç də təsadüfi deyil ki, el arasında gəzən “Dərbənddə qırxlar, Şirvanda şıxlar köməyin olsun” duasında da “qırxlar” obrazı xalq arasında formalaşmış ifadədir. Burada sakral və mifoloji məqamda “Qırxlar” əcdad kultunun transformativ törəməsidir. Sovet dönəmində Azərbaycan xalqının milli mənsubiyyətində ayrı salmaq üçün milli olan hər nə vardısa, unutdurmağa çalışırdılar. Necə ki, təzə gün bayramı olan Novruzun geniş məkanda keçirilməsinə qadağa qoyulmuşdu, eləcə də saz-söz adamlarına bəzi müqəddəs dəyərlərdən yazmağa müəyyən qadağalar vardı. Bütün bunlara baxmayaraq, ustad sənətkara özünü ifadə etmək üçün hər zaman, hər məkanda sərbəst meydan var idi. Çünki ailəsini, nəslini itirmiş ustadın başqa itirmək qorxusu yox idi. O, bütün şeirlərini bədahətən deyirmiş. Sovet rejimindən narazı qalan sənətkarın məclislərdə bədahətən dediyi şeirlər, yaşadığı rejimi tənqid etməyi məhz çoxlarına xoş gəlmir, bu səbəbdən dəfələrlə zindan həyatına məhkum olunmuşdur.

Füzuli Bayat “Aşıq poeziyasında Kərbəla mövzusu” adlı məqaləsində qeyd edir ki, unudulmağa, unutdurulmağa çalışılsa da, məzhəbindən asılı olmayaraq, Anadolu, Azərbaycan, Türkmən, Özbək aşıqlarının baxışları Şahi-Mərdan Hz.Əli kultu baxımından işlənmiş və bu, aşıq sənətinin aparıcı mövzusu olmuşdur (Azərbaycanda sovetləşməyə qədər) [2, s.6]. Bütün maneələrə baxmayaraq, ustad sənətkar öz sözünü şeirin, sözün, sənətin dililə ifadə etməkdən çəkinməmişdir. Ustad sənətkar atdığı hər addımda könlünü yalnız haqqa bağladığını, yalnız haqqa olan güvənini, sadiqliyini, etibarını və yalnız ona sığındığını işarət edir:

*Dalğın deyər, şair olan gəlib çıxsın qabağa,*
*On sözümə bir söz desə, bir qoç desin sadağa.*
*Mənə nə edə biləcək nayıb, koxa, baş ağa,*
*Sidqim Haqqa bağlamışam, edirəm gümanı*
*mən.* [10]

Ustad sənətkarın poeziyası Tanrının işığı ilə yazılmış, müqəddəslərin xeyir-duası ilə süzülüb gələn pak, səmimi və mükəmməl bir poeziyadır. Onun yaradıcılığı eynən ustadın xarakterində olduğu kimi, düzgünlüyü, dürüstlüyü, kimsənin qarşısında əyilməməyi sevir. O, əksər şeirlərinin sonunda oxucusunu düşündürmək üçün bir istiqamət verir.

*Hakimə əyilməz, başım nə dinə,*
*Köksüm ki, hərarət borc verin günə.*
*Üç şeydən məsafə bildim əfsanə*
*Haqqa aşıq olanlar söyləyəcəklər.* [10]

Ustad sənətkar ulu babalarımızın yaddaşından süzülüb gələn bir müqəddəs yol tanıyır ki, bu yol haqqın yoludur ki, onun bütün yaradıcılığına hakimdir. Haqq yolunda və haqqın tərəfində olmaq sələflərinin qoyduqları mübarək ənənələri yaşatmaq onun yaradıcılığının əsas xəttini təşkil edir.

*Kimi deyim qəlbi çıxıb qaradan,*
*İsgəndər, Süleyman kam aldı hardan*
*Məzlum bəndələrə, taclı şahlardan*
*Al əlindən cah-cəlalı yarı böl.* [10]

## Nəticə / *Conclusion*

Fikrimizcə, az, lakin mənalı və keşməkeşli ömür yaşayan Aşıq Cahangir Dalğın Tanrının ona bəxş etdiyi ömrü heç də boşuna yaşamadı. Onun yazıb-yaratdığı inciləri hələ bundan sonra da böyük tədqiqatların əsas predmeti olacaqdır.

## Ədəbiyyat / *References*

1. Cahangir Dalğın. Dalğına tor quran dünya. Bakı: Apostrof, 2021.
2. Füzuli Bayat. Aşıq poeziyasında Kərbəla mövzusu. “525-ci qəzet”, 13 avqust 2022-ci il.
3. Həkimov Mürsəl. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004.

4. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002.
5. Qasımlı Məhərrəm. Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011.
6. Məmmədli Elxan. Təcnis sənətkarlığı. Bakı: Nafta-press, 1998.
7. Mənsimova Zümrüd. Zaqatala aşıq mühiti. Bakı, 2014.
8. Təhmasib Məmmədhüseyn. Məqalələr. Bakı: Elm, 2005.
9. Yılmaz Hasan Kamil. Mövlana düşüncəsində insanın dəyəri. Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007.
10. http://goyce.az/news.php?id=58.

## Проблема происхождения в творчестве Джахангира Далгына

**Зумруд Мансимова**
Доктор философии по филологии
Ученый секретарь Президиума НАНА, Отдел общественных наук. Азербайджан.
E-mail: zumrudibrahimqizi@gmail.com

**Резюме.** В статье рассматривается отношение к представителям культа предков в творчестве Ашуга Джахангира Далгына, одного из воспитанников Загатальской ашугской литературной среды. Также обсуждался ряд вопросов о личности мастера. Его любовь и уважение к Адаму, Хазрату Али, Хидир Ильясу и Сороковым, которые являются трансформирующими парадигмами культа предков, были изучены в его поэзии.
**Ключевые слова:** предок, Адам, пророк Али, Худа, ашуг, ашугское искусство, Джахангир Далгын